

## ARAZ ƏHMƏDOĞLU, XOY

## AĞACIMI KƏSDİN, SƏN MƏNİ KƏSDİN!

Qərədağda meşələrimizi kəsdirənlərə:
Bir gün tarixindən izimi kəsdin,
Bir gün Tanrı vermiş dilimi kəsdin,
Bir gün balta olub kökümü kəsdin,
Ağacımı kəsdin, sən məni kəsdin!
Bir gün ellərdən sorağımı kəsdin,
Bir gün Dağlıq Qara bağımı kəsdin,
Bağdakı yaşıl budağımı kəsdin,
Ağacımı kəsdin, sən məni kəsdin!
Bir gün Dədəm qoymuş adımı kəsdin,
Bir gün yaddaşlardan yadımı kəsdin,
Bir gün damaqdakı dadımı kəsdin,
Ağacımı kəsdin, sən məni kəsdin!
Bir gün torpağımı çölümü kəsdin,
Bir gün Urmudakı gölümü kəsdin,
Bir gün bülbülümü, gülümü kəsdin,
Ağacımı kəsdin, sən məni kəsdin!
Bir gün quldur oldun yolumu kəsdin,
Bir gün oğru oldun pulumu kəsdin,
Bir gün cəllad oldun qolumu kəsdin,
Ağacımı kəsdin, sən məni kəsdin!
Bir gün dedin dostsan, duz-çörək kəsdin,
Bir gün üzdə qardaş, sən kömək kəsdin,
Bir gün sözdə yoldaş, sən əmək kəsdin,
Ağacımı kəsdin, sən məni kəsdin!

*31 Dekabr, 2018, Xoy.*

***Kredo qəzetinin hörmətli əməkdaşları,***

***Sizi hörmətlə salamlayır 2019-da sizə, hörmətli ailənizə və bütün vətənimizə xeyirllər, bərəkətli, uğurlu, sağlıq və xoşbəxtliklərlə dolu anlar, günlər arzulayıram. Hörmətli Əlirza müəllimin buyurduğuna görə bu emeyli sizə yolladım. Ümid edirəm endirib açmasında bir sorun yaranmaz.***

***Əməyinizə görə hamınıza dərin təşəkkürlərimi bildirirəm.***

***Hörmətlə,***
***Araz Əhmədoğlu***

## 26-NIN MƏHKƏMƏSİ

İyirmi beş min uçan göyərçindən qorxdunuz,
İyirmi beş min saçan ay-ulduzdan qorxdunuz,
İyirmi beş min yaşam ağacından qorxdunuz,
İyirmi altısında meydanlara topladız,
Tonqal qurub odladız,
Siz bizi alovladız,
Nazik, incə əlləri özləyən vərəqləri,
Lüt budaqlara bəzək olan biz yarpaqları.
Şəvə kimi parlayan bizə baxan gözləri
Siz ağlar buraxdınız.
Hələ bu da yetmədi,
Dünyaya car saldınız:
"Bu Azərbaycanlılar
Türk dilində oxumaq
Özləri istəmirmiş."!!!
Tarix boyu ən çirkin vərəği SİZ yazdınız.
Öz əlinizlə, bilin, gorunuzu qazdınız!
Yalnız Bərabərlikçün,
Yalnız Ədalət üçün,
İnsan Haqları üçün var-yoxundan vaz keçən
İyirmi beş min ala göyərçinin qanından
Heç utanmadınızmı?
Utanmaq da, vicdan da
Yalnız insan üçündür;
Siz İblisin əlini arxada bağlayanlar,
Ədalətin əlindən qurtulacaqsınızmı?
İyirmi beş min saçan
Ay-ulduzların nuru
Sizi boğmayacaqmı?
İyirmi beş min yaşam ağacının dalları
Milyonları aşıban siz hərzə ot-ələfə
Gün üzü verəcəkmi?

*26 Azər, 1397 (17 Dekabr 2018),*

## SƏN

Bir boz qurdsan, dərin dərəli dağsan,
Dumanlı başlarda buludsan qarsan.
Başlardakı sevdayla başda qalıb,
Ürəkdəkilərlə yer-göydə varsan.
Bir ala qarğaykən bülbül olarsan,
Bir qara çalıykən sünbül olarsan,
Yerlərdə sürünən yer qurduikən,
Qartallarla göyləri dolanarsan.
Dərdsən, dərmansan, cimslərdə cansan,
Vəslsən, hicransan, şirk ilə imansan,
Ruhsan, rəvansan, sən rahəti-cansan.
Qara dəliklərdən nur yaradansan.
Axşamsan, səhərsən, ilksən, axırsan,
Hər görən gözdən yalnız Sən baxırsan,
Dünənsən bu günsən, birisi günsən,
Batinsən, zahirsən, Sən "Küntü kənz"sən.
Bir gün bir atasan, bir gün babasan,
Bir gün bir qızcığaz, bir gün anasan,
Bir gün qardaşsan, bir gün bacı, dostsan,
Dinə gəlib bu Arazı danarsan.

*4 Dekabr, 2018, Xoy.*

## BİR ÖLKƏMİZ VARDIR

Bir ölkəmiz vardır orada güllər
Çiçəklərlə ləçək-ləçək sarışıb
Yaşıllıq fışqıran budaqlar ilə
Yüksəlir göyə çatmaq ümidiylə.
Bir ölkəmiz vardır orda bülbüllər
Küləyin sərin ahəngilə ötür;
Dumduru bulaqlar zinələr Yeri
Canlandırır yaşatmaq ümidiylə.
Bir ölkəmiz vardır orada gecə
Basılır aydın şəfəq ümidiylə.
Bir ölkəmiz vardır orada günəş
Batır yenidən çıxmaq ümidiylə.
Bir ölkəmiz vardır orada günəş
Gün çıxandan batanacan çalışır
Yer üzündəki hər bir yaratığı
İsindirsin eşitlik ümidiylə.
Bir ölkəmiz vardır hər günçıxandan
Günbatanadək bir aslan qovalır
Bir maral ceyranı tutub yeməkçün,
O da qaçır yaşamaq ümidiylə.
Bir ölkəmiz vardır orada hər kəs
Bilir qaçmaq və yaxud qovalamaq
Heç biri önəmli deyil, önəmli
Qaçmaq məqsədə çatmaq ümidiylə.
Bir ölkəmiz vardır orada insan
Dilsiz-ağızsız yaşamır qorxudan,
Gecəni yuxusuz qalmır, oyansın

Ancaq qarnın doyurmaq ümidiylə.
Bir ölkəmiz vardır orada torpaq
Candan əziz tutuluban sevilir,
Göz bəbəyi kimi daim qorunur
İnsan kimi yaşamaq ümidiylə.
Bir ölkəmiz vardır orada Hakim
Yalnız Həqiqətdir, yalnız Sevgidir.
Bir ölkəmiz vardır sərilir göylər
Qara torpağı qucmaq ümidiylə.

*Xoy, 27 Oktiyabr, 2018*

## NECƏ DEYİM BAYRAMINIZ MÜBARƏK

Boynu bükük, avara, üzü qara
Fəhlə meydanında çəkilib dara
Əlim boş, didərgin, ürəyim yara
Evə qayıdıram, axı bu üzlə
Necə deyim: "Bayramınız mübarək!?"
Əkib biçib ömrümün hasilini
Suya töküb ucaldır amilini –
Dəllallar meydanında qatilimi;
Əməyimi zay edirəm, bu üzlə
Necə deyim: "Bayramınız mübarək!?"
Hansı ümidlə, hansı arzularla,
Hansı gələcək, hansı xəyallarla
Oxuyub işsiz qaldım xulyalarla.
Dünyadan küsmüşkən axı bu üzlə
Necə deyim: "Bayramınız mübarək!?"
Dul qadınam, işdən düşmüş qocayam,
Sanırdım ulduzdan aydan ucayam,
Qaranlıqlara açılmış bacayam;
Özümdən belə bezmişəm, bu üzlə
Necə deyim: "Bayramınız mübarək!?"
Haq deyənlər dustaqlar içrə yatır,
Haq nahaq içində boğulub batır,
Oğrular bu meydanda şıllaq atır;
Haqqımdan vaz keçsəm, axı bu üzlə
Necə deyim: "Bayramınız mübarək!?"
Hara baxıram çatışmazlıq dərddir,
Bu günüm dünənimdən, namərd, sərtdir.
Yüz ilin ölüsün şah bilən Mərddir!
Gələcəyi görsəm... Nəysə, bu üzlə
Necə deyim: "Bayramınız mübarək!?"
Minlər ildir bu odlarla yanıram,
Yansam da sanma, dünümü anıram.
Odlar Yurdu adın bundan alıram,
"Kərəmi"ni alışdır, mən bu üzlə
Necə deyim: "Bayramınız mübarək!?"